PLASTCON GROUP

# TƏQDİMAT



# HAQQIMIZDA

Plastcon Group şirkəti Polimer məhsulların (boru və boru birləşmələrin), beton boru, beton quyu, Polad məmulatların və hər növ kabellərin satışını həyata keçirir.

Bununla yanaşı su, qaz və kanalizasiya sistemlərinin qurulmasında, habelə digər inşaat sahələrində tələb olunan materialların satışını təşkil etmək şirkətin digər fəaliyyət istiqamətlərindəndir. Uğurlu layihələrin icrasının reallaşdırılması və hal-hazırda da bu sahədə işlərin davam etdirilməsi bizim fəaliyyətimizin mərkəzində dayanır.



PLASTCON GROUP



# MƏHSULLAR

## POLIMER BORULAR

### Pe100 BORULARI



Bu çeşid plastik boru istehsalında yeni mərhələnin başlanğıcı hesab edilir və yüksək təzyiqə davamlılığı ilə seçilir. PE100 borular digər markalı (PE 63, PE 80) məhsullar ilə müqayisədə daha az divar qalınlığına və daha üstün mexaniki xassələrə malikdirlər. Ən müasir polietilen boru sayılan bu məhsul diametri 16-1200 mm və 6,3-25 atmosfer gücündə istehsal olunur.

### KORUGE BORULAR



Şirkətimiz yeni növ polimer koruge boruların da satışını həyata keçirir. Bu borular digər polimer borulardan fərqli olaraq bir neçə sahəni əhatə edir. Səthinin möhkəm və çəkisinin yüngül olması onları əvəzolunmaz edir.
Bu borular həm elektrik, telekommunikasiya və digər ötürücü xətlərin təhlükəsizliyinin təminatında, həm də təzyiqsiz çirkab, qrunt və yağış sularının axıdılmasında geniş istifadə olunur.

# MƏHSULLAR

## KANALIZASIYA ÜÇÜN GENAĞIZLI BORULAR



Daxili kanalizasiya şəbəkələrini yaratmaq üçün PPH "Homogen polipropilen"dən hazırlanmış borulardan istifadə olunur. Bu borular yüksək fiziki və mexaniki xassələrə malik olduqlarından aqressiv mühitə qarşı davamlıdırlar. Bu xassələr kanalizasiya borularının həm daxili və həm də xarici səthlərinə şamil oluna bilər və PVC borularından fərqli olaraq sınmaya qarşı daha dözümlüdürlər.

## ŞÜŞƏ LIFLI ÜÇQAT PPRC FIBER BORULAR



PPR fiber borular yüngül və hamar olması, daxili səthinin sürüşkən və parlaq olması, kirəc bağlamaması, paslanmaması, gigiyenik olması, quraşdırılmasının asan olması kimi üstün cəhətləri ilə plastik boru sahəsində əhəmiyyətli yer tutaraq bina içi soyuq və isti su təsisatlarında istifadə edilməyə başlamışdır.



PLASTCON GROUP



# MƏHSULLAR

## DAMCI SUVARMA BORULAR



Xüsusi filtirlər vasitəsi ilə içindəki qum, gil, yosun və s. qatışıqlar təmizləndikdən sonra su damcı suvarma borularından bitkilərin birbaşa kök hissəsinə damcılar halında verilir. Damcı suvarma borularını istənilən relyefə malik olan ərazilərdə tətbiq etmək mümkündür.
Bu tip sistemlərin tətbiqi bütün suvarma proseslərini avtomatlaşdırmağa imkan verir ki, bu da öz növbəsində əmək sərfinin azalmasına səbəb olur.
Damcı suvarma üsulunda faydalı istifadə əmsalı səthi suvarmadan fərqli olaraq 95% - dən yuxarıdır.

## POLIMER BORULAR



Polipropilen PPR Borular
Bu gün plastik məhsullar texnoloji yeniliklərlə birlikdə həyatımızın ayrılmaz hissələrinə çevrilib. Bunun nəticəsi olaraq insanlar artıq məişətdə bir vaxtlar su çəkilişləri zamanı istifadə etdikləri metal borulardan daha ucuz, kimyavi və təbii təsirlərə davamlı, asan istifadə oluna bilən plastik borulara üstünlük verməyə başlayıb.
Plastik borular içərisində Polipropilen PPR borular ən son yeni məhsullardan hesab olunur.

# MƏHSULLAR

## POLIMER FİTİNQLƏR

### PPH FITINQLƏR



Bu çeşid plastik boru istehsalında yeni mərhələnin başlanğıcı hesab edilir və yüksək təzyiqə davamlılığı ilə seçilir. PE100 borular digər markalı (PE 63, PE 80) məhsullar ilə müqayisədə daha az divar qalınlığına və daha üstün mexaniki xassələrə malikdirlər. Ən müasir polietilen boru sayılan bu məhsul diametri 16-1200 mm və 6,3-25 atmosfer gücündə istehsal olunur.

### PE 100 BORULAR ÜÇÜN TÖKMƏ FİTİNQLƏR



Tökmə fitinqlər — polietilenin (PE100) təzyiq və temperatur altında qəliblərə tökülməsi üsulu ilə istehsal olunur. Fitinqlər boru sisteminin istiqamətini dəyişmək, bərabər paylanma və ya başqa diametrə çevirmək istədikdə istifadə olunur. Bu fitinqlərin əhəmiyyətli üstünlüyü istehsalının asanlığı və az məsrəfli olmasıdır. Quraşdırılması qaynaqla birləşdirmə ilə edilir ki, bu da maliyyə xərclərini azaldır və əlavə xərclərdən azad edir.

### QOFRALI PPH FITINQLƏR



1-15 metr dərinlikdə istifadə oluna bilən bu borular fiziki, kimyəvi və texniki təsirlərə qarşı davamlıdır. Həmçinin, koruge boruların tətbiqi mühəndis-texniki qurğuların istismar müddətini uzadır, vaxt itkisini minimuma endirir.



# MƏHSULLAR

## POLIKARBONAT LÖVHƏLƏR



Pətəkvari polikarbonat lövhlər - məsaməli quruluşa malik, təbəqəli polimer materialdır. Bu material iki qatdan ibarətdir və bu qatlar öz aralarında möhkəmlik telləri adlanan daxili arakəsmələrlə birləşmişlər. PMZ-də polikarbonatın bütün istehsal prosesi İtaliya istehsalı olan müasir texnoloji avadanlığın köməyi ilə həyata keçirilir. Zavodda, polikarbonat məmulatlarının istehsalında, dünyada lider olan Baryer və Sabic kimi xammal istehsalçıların məhsullarından istifadə edilir.

## POLIMER AKSESSUARLAR



PMZ-də stadionlar və digər istənilən açıq və qapalı idman qurğuları və konsert zalları üçün keyfiyyətli oturacaqlar hazırlanır. Bu oturacaqlar erqonomik və yaraşıqlı dizayna malikdirlər, sadə quruluşu , asan quraşdırılması və uzunmüddətli istismarı ilə fəqlənirlər. Stadionlar üçün polipropilen oturacaqlar istənilən səth üzərinə 4 yerdən bolt vasitəsilə birləşdirilə bilər. Sonra bu birləşmə yerləri PP bolt qapaqları vasitəsilə örtülür. Oturacaqların quraşdırılması və istismarı barədə aydın və açıq şəkildə yazılmış təlimat da məmulatın üzərinə əlavə olunur.

# MƏHSULLAR



## ORTA VƏ YÜKSƏK GƏRGINLIKLI GÜC KABELLƏRI



**POLİETİLEN İZOLYASİYALI TƏKDAMARLI KABELLƏR**
Standart: AZS 418-2010 (TS İEC 60502-2), TSE K 204
Rus analoqu: ПвВ Kabel istehsal sahələrində, kabel xətlərində stasionar quraşdırılma üçün istifadə olunur. Kabellər quru torpaqda və həmçinin səviyyələr fərqinin məhdudiyyəti olmadan quraşdırılma imkanına malikdirlər. Kabel tək halda quraşdırılmada yanmanı yaymır.

## RABITƏ VƏ LAN KABELLƏRI



**SF/UTP CAT 5E**
Dörd cüt damar bir arada burularaq üzərinə qoruyucu lent, ekranaltı axın naqili və alümipolimer ekran çəkilir. Alümipolimer ekran çəkilmiş damarın üzərinə qalaylanmış mis məftillərdən hörgü ekran və xarici mühafizə örtüyü çəkilir. Kateqoriya 5e.
Keçirici damar: yumşaq mis
İzolyasiya: yüksək sıxlıqlı polietilen
Xarici mühafizə örtüyü: PVC/LSZH (boz rəng)

# MƏHSULLAR

## ALÇAQ GƏRGİNLİKLİ GÜC KABELLƏRİ




**N2 Y / N2 Y-fl / N2 Y-LS**
**Dielektrik itgilərinin çox az olduğu bu kabellər, yaşayış və sənaye bölgələrində, xaricdə, torpaq altında və kabel kanallarında ani yük dəyişmələrinin olduğu enerji şəbəkələrində istifadə olunur.**

## İZOLYASİYASIZ GÜC NAQİLLƏRİ



МГ(АСС)

**Elektrotexniki qurğularda, cihazlarda və antenalarda istifadə edilən naqillər.**

# SENDVİÇ PANELLƏR

Sendviç panellərinin rəngi sifarişçinin arzusundan asılı olaraq "RAL" rəng kataloqundan seçilir. Panellərin dam və ya divar növlü olmasından asılı olaraq metal lövhələrin arasına izosianat, poliol, pentan və katalizator vurulur.Zavodda ən yüksək standartlara cavab verən Almaniyanın "Krauss Maffei" şirkətinə məxsus avadanlıq quraşdırılmışdır. Bu istehsal xətti saatda 306 $m^2$ poliuretan və180 $m^2$ daş yunlu sendviç paneli istehsal edə bilir. Poliuratan panellərin sıxlığı 38÷42 kq/$m^3$-dir. Zavodun istehsalı olan daş yunlu panellər xüsusən yanğın riski yüksək olan ərazilərdə istifadə olunur, bu tip panellər yanğına davamlılığı ilə seçilir.Panel istehsalı zamanı sifarişçinin istəyinə uyğun olaraq istənilən qalınlıqda və rəngdə polad təbəqədən istifadə olunur. Panellərin eni bir qayda olaraq 1 metr, uzunluğu isə 3÷15 metrdir. İstifadəyə hazır məhsulun qalınlıqları 50,70,100 mm təşkil edir.





# XİDMƏTLƏRİMİZ

## Qazma Quraşdırma



Bu gün plastik məhsullar texnoloji yeniliklərlə birlikdə həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bunun nəticəsi olaraq insanlar artıq məişətdə bir vaxtlar su çəkilişləri zamanı istifadə etdikləri metal borulardan daha ucuz, kimyəvi və təbii təsirlərə davamlı, asan istifadə oluna bilən plastik borulara üstünlük verməyə başlayıblar.
Plastcon Group olaraq, boruların satışını həyata keçirməklə kifayətlənmirik, onların qazma-quraşdırma işlərini də reallaşdırırıq. Ən mürəkkəb şəbəkələrin qurulmasını icra edə biləcək peşəkar komandamız sizin layihələrinizi yüksək dəqiqliklə işləmək iqtidarındadır.
Şirkətimiz sənaye, mülki, kənd təsərrüfatı və digər sektorlarda boruların çəkilişini öhdəsinə götürə bilir. Mütəxəssislərimiz iri su kəmərlərinin, kanalizasiya xətlərinin, boru kəmərlərinin, xarici suötürmə sistemlərin və s. çəkilişini həyata keçirir. Həmçinin drenaj və digər sistemlərin quraşdırılmasını da təmin edirik.

## Sendviç Panellərin Quraşdırılması



Plastcon Group çox yüksək keyfiyyəti, əla istilik izolyasiyası, asan quraşdırılma və sökülmə qabiliyyəti, uzunömürlülüyü, yanğına və suya yüksək müqaviməti, səs izolyasiyası və korroziyaya davamlılığı ilə seçilən sendviç panellərin satışı ilə yanaşı, onların quraşdırılmasını da həyata keçirir.
Divar və dam işlərini təcrübəli ustalardan ibarət komandamıza həvalə edə bilərsiniz.

## Qazma Quraşdırma Tikinti Xidmətləri



Plastcon Group inşaat sektorunda da güvənə biləcəyiniz bir şirkətdir. Layihələrinizi müasir texnologiyalarla iş təcrübəsi olan peşəkar ustalardan ibarət komandamıza etibar edə bilərsiniz.
Müvafiq lisenziya əsasında həyata keçirdiyimiz təmir və tikinti işləri qanunvericilikdə tələb olunan standartlara tam cavab verir. Təklif etdiyimiz qiymətlər vəsaitinizə, əməkdaşlarımızın operativliyi isə vaxtınıza qənaət etməyinizi təmin edəcək.
Biz istənilən üslub və təyinatda obyektlərin, binaların, fərdi yaşayış evlərinin inşasını reallaşdıran zaman bütün işləri kompleks şəklində görürük və təhvil verdiyimiz layihələrin keyfiyyətinə zəmanət veririk.

# STANDARTLARIMIZ

## Beynəlxalq Standard ISO 9001

2012-ci ilin dekabr ayında Sumqayıt Texnologiya Parkı ISO 9001: 2008 keyfiyyət sertifikatına layiq görülmüşdür . Bu sertifikat STP idarəetmənin və təşkilati inkişafın səmərəliliyini təsdiq edir , o cümlədən də:

Müştərini diqqətə alaraq, STP son istifadəçinin tələb və ehtiyaclarına yönəlik iş proseslərini təşkil edirdi. Məsələn, Ümumi İdarəetmə Nəzarətinin tətbiq edilməsi və daima yeni texnologiyaların cəlb edilməsi səmərəliliyi və eyni zamanda istehsal edilən məhsulun keyfiyyətini artırır .

Biz partnyorlarımızın qayğısına qalırıq. Çatdırılmanın təşkilinin fasiləsiz təkmilləşdirilməsi, lazımi sənədlərin təqdim edilməsi, müqavilə şərtlərinə riayət etmə İş proseslərinin və istehsal güclərinin fasiləsiz təkamülü şəraitində istehsal və biznes texnologiyalarının inkişafı. Əsas rəhbər prinsip aparıcı avropa şirkətlərindən sınanmış texnologiyalarının, eləcə də aparıcı kompüter və informasiya texnologiyalarının istifadəsidir .

Biz istehsal və kadr infrastrukturunun yaxşılaşdırılmasına yönəlik fasiləsiz analitik nəzarətin təşkil edilməsinə xüsusi diqqət yetiririk.
Müştərilərin şikayətlərinə reaksiya, müvafiq nəticələr , çatışmazlıqların aradan qaldırılması üzrə aydın və səmərəli tədbirlər
.













## Beynəlxalq Standard OHSAS 18001

Beynəlxalq standart OHSAS 18001 – işçi heyətin sağlamlığının və təhlükəsizliyinin idarəetmə sistemlərinin işlənib-hazırlanması üçün nəzərdə tutulmuş standartdır. OHSAS 18001 abbreviaturası Occupational Health and Safety Management Systems, yəni peşə sağlamlığının idarəetmə sistemi kimi açıqlanır.

OHSAS 18001 standart sertifikatını əldə edərək, STP şirkətin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə istehsal proseslərinin işçi heyətin sağlamlığı və iş qabiliyyəti üçün təhlükəsinin azaldılması üzrə daimi işini təsdiq etdi. Fəaliyyətimizin müvəffəqiyyəti, istənilən biznes layihələrinin həyata keçirilməsi yalnız mümkün fors-major halların ümumi nəzarəti şəraitində mümkündür. İstehsalatın insan sağlamlığına təhlükəsizliyinin düzgün qurulmuş menecmenti qəza və bədbəxt hadisələrin nəticələrini, o cümlədən də iqtisadi nəticələrini minimuma endirir.

Təhlükəli istehsal amillərinə nəzarətin tətbiq edilməsi və daim təkmilləşdirilməsi
İstehsal prosesində yaranan risklərin idarə edilməsi

Bədbəxt hadisələrin, qəzaların və gözlənilməyən halların qarşısının alınması
Əməyin mühafizəsinin və təhlükəsizliyin idarəetmə sistemlərinin mövcud idarəetmə sistemləri ilə inteqrasiyası

# MÜŞTƏRİLƏRİMİZ VƏ PARTNYORLARIMIZ

## Əlaqə


+994 12 488 07 48
+994 50 295 99 35

www.plastcongroup.az
info@plastcongroup.az

Xətai rayonu, Babək pr. Ə.Quliyev küç.
Babək Plaza 1131 Məhəllə AZ 1025